VƏ YA BİLMƏDİYİN SAHƏDƏN DANIŞMAQ, MƏSLƏHƏT VERMƏK MƏRƏZİ

# SOSİAL PSİXOLOJİ BƏLA

Koronavirus (COVİD-19) pandemiyası dünyada tüğyan edir. Bəşəriyyətin bəlasına çevrilən bu virusun kökünü birdəfəlik kəsmək hələlik mümkün olmur

RUFİK İSMAYILOV rufikismayilov@kaspi.az

### COVİD-19 HƏLƏ DƏ TÜĞYAN EDİR

Koronavirus (COVİD-19) pandemiyası dünyada tüğyan edir. Bəşəriyyətin bəlasına çevrilən bu virusun kökünü birdəfəlik kəsmək hələlik mümkün olmur. Hər ötən gün yoluxma və ölüm sayı durmadan artır. Bütün dünyada bu bəlaya qarşı effektiv mübarizə aparmaq üçün peyvəndlənməyə start verilib. Hər bir ölkə öz əhalisini peyvənd olunmağa səsləyir, bəziləri isə bunu məcburi edirlər. Bəzi ölkələrdə isə insanların peyvənd olunması üçün hədiyyələr paylanır, pul mükafatları verilir.

### HEÇ KİM İDDİA ETMİR Kİ...

Azərbaycan da COVİD-19-a qarşı mübarizəyə qoşulub. Ölkəmizə bir neçə adda, hamıya yetəcək qədər peyvənd gətirilib. Səhiyyə işçiləri, ayrı-ayrı mütəxəssislər kütləvi informasiya vasitələrinə verdikləri açıqlamalarda peyvənd olunmağın koronovirus bəlasına qarşı mübarizədə ən effektiv yol olduğunu bəyan edir, elmi əsaslar gətirirlər. Heç kim iddia etmir ki, peyvəndlənən şəxs virusa yoluxmayacaq. Amma həm elmi əsaslar, həm də təcrübə onu sübut edir ki, peyvəndlənən şəxslər, hətta virusa yoluxsalar belə, onu peyvənd olunmayan şəxslərlə müqayisədə daha yüngül keçirir, ölüm riski ilə rastlaşmırlar.

### KEÇİ İNADKARLIĞI

Belə bir gerçəklik fonunda hələ də insanlar arasında peyvəndlənməyə şübhə ilə yanaşanlar tapılır. Hər gün qohum-əqrəbaları arasında kimlərinsə bu virusdan öldüyünü müşahidə etdikləri halda belə, antipeyvənd təbliğatı aparmaqdan yorulmurlar. Bələlərinin məqsədi, marağı və hədəfi nədir?




## Yarımçıqlıq sindromu

Sosioloq deyir ki, koronovirusla bağlı ona da müraciət edib fikrini öyrənmək istəyənlərə cavabı bu olur ki, bu sahənin mütəxəssisi deyiləm, bu barədə məsləhət verə bilmərəm: “Koronavirusa qarşı mübarizə üsullarını nə şərh edirəm, nə də tənqid edirəm. Burada xeyli qeyri-müəyyənlik var. Peyvəndə qarşı çıxanları, bununla bağlı çağırışlar edənləri də təqdir etmirəm. Sosioloq olaraq yanaşmam budur ki, bizim cəmiyyətdə bilmədiyi sahədən danışmaq böyük sosial-psixoloji bəladır. Təəssüf ki, bəzi insanlar bilmədikləri sahələrdən, yaxud yarımçıq oxuduqları kitablardan, məqalələrdən amiranə danışırlar. Bu nöqteyi-nəzərdən peyvəndlənmə barəsində də dərindən bilgiyə sahib olmadan çağırış etmək yanlış addımdır. Bilməyən adam başqasına necə və hansı haqla məsləhət verə bilər? Bu, sosial-psixoloji və yarımçıqlıq bəlasıdır”.

## Antimilli və antibəşəri yanaşma

Deputat Fəzail Ağamalı qəzetimizə bildirib ki, koronovirusun tüğyan etdiyi bir vaxtda peyvəndə qarşı çıxmaq düşmənçilikdir: “Bu, antimilli deyil, antibəşəri yanaşmadır. Xalqımız populist insanların çağırışlarına inanmamalıdır. Bəzən görürsən ki, elementar orta təhsili olmayan birisi sosial şəbəkədə antipeyvənd təbliğat aparır, bunu kimlərinsə oyunu kimi qələmə verir. Hər gün bu xəstəlikdən insanlar ölür. Bütün dünya bu bəlaya qarşı mübarizənin içindədir. Biz də qorunmaq üçün qaydalara riayət etməliyik. Bu şərtlərin ən vacibi də peyvənd olunmaqdır”.